AZƏRBAYCAN www.azerbaijan-news.az

# Çexiya parlamentinin nümayəndələri Milli Məclisdə olublar



Martın 14-də Milli Məclisin Sədri Oqtay Əsədov Çexiya Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçekin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan ilə Çexiya arasında əlaqələr müzakirəsi olunub.

Əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Oqtay Əsədov parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, biznes forumların mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Milli Məclisin Sədri ölkələrimiz arasında hüquqi bazanın da mövcud olduğunu bildirib. Vurğulayıb ki, bu bazanın təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi önəmlidir. Oqtay Əsədov Bakıda Azərbaycan ilə Çexiya arasında imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin ölkələrimiz arasında əməkdaşlığın inkişafında əsas yaradan hüquqi bazanı möhkəmləndirəcəyini qeyd edib.

Milli Məclisin Sədri hər iki ölkənin qanunverici orqanında dostluq qruplarının fəaliyyətinin də məmnunluq doğurduğunu bildirib. O, Avropa ittifaqı ölkələri arasında ilk olaraq Çexiya Parlamenti Deputatlar Palatasının xarici əlaqələr komitəsinin Xocalı soyqırımı haqqında qərar qəbul etməsinin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

İqtisadi sahədəki əməkdaşlıqdan söz düşəndə Milli Məclisin Sədri deyib ki, bugünə kimi Çexiya tərəfindən Azərbaycana ümumilikdə 1 milyard dollardan çox investisiya qoyulub. 2015-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 610 milyon dollar təşkil edib. Çexiyanın neftə olan ehtiyacının 31,5 faizi Azərbaycan nefti ilə ödənilib.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri də Çexiya və Azərbaycan parlamentləri arasında əlaqələrin məmnunluq doğurduğunu vurğulayıb. Y.Hamaçek bu səfərin münasibətlərimizin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyini bildirib.

Yan Hamaçek Çexiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı mövqeyini və bu problemə dair beynəlxalq təşkilatların qətnamə və qərarlarını dəstəklədiyini vurğulayıb.

***Elgün MƏNSİMOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***